Niall Kishtainy

İQTİSADİYYATIN QISA TARİXİ

Tərcüməçi:
Nuranə Əzizli

QANUN NƏŞRİYYATI

Niall Kishtainy

A LITTLE HISTORY OF ECONOMICS

Təkcə iqtisadçıların deyil, cəmiyyətin bütün təbəqələrinin marağına səbəb olacaq bu kitab qədim dövrlərdən başlayaraq günümüzə qədər gəlib çatmış müxtəlif ictimai–siyasi formasiyalarda iqtisadiyyatın təməl prinsiplərini araşdıran alimlərin baxışlarına, cəmiyyətin daha düzgün və səmərəli həyat tərzinin formalaşdırılması uğrunda onların apardıqları müzakirə və mübahisələrə həsr olunub.

İçindəkilər

1. Soyuq başlar və isti ürəklər 7
2. Havada süzən qu quşları 15
3. Tanrının iqtisadiyyatı 23
4. Qızıl axtarışı 31
5. Təbiətin hədiyyəsi 39
6. Görünməz əl 47
7. Taxılla dəmirin qarşılaşması 55
8. İdeal bir dünya 63
9. Bir çətən külfəti dolandırmaq 71
10. Dünyanın işçiləri 79
11. Mükəmməl balans 87
12. Günəşi söndürün! 95
13. Müharibənin qazancı 103
14. Səs-küylü truba ifaçısı 111
15. Kola yoxsa pepsi? 119
16. Bir planı olan adam 127
17. Pulun nümayişi 135
18. Vannadakı tıxac yeri 143
19. Yaradıcı dağıntı 151
20. Məhbus dilemması 159

21. Hökumətin tiranlığı 167
22. Böyük təkan 175
23. Hər şeyin iqtisadiyyatı 183
24. Artım 191
25. Xoş ahəng 199
26. İkiyə bölünmüş dünya 207
27. Vannanı doldurmaq 215
28. Təlxəklər tərəfindən idarə olunmaq 223
29. Pul xəyalı 231
30. Gələcəyə baxış 239
31. Spekulyantlar hücumda 247
32. Məzlumu qorumaq 255
33. Sən məni tanıyırsan, mən də səni 263
34. Yerinə yetirilməyən vədlər 271
35. İtkin qadınlar 279
36. Bulanıq zehinlər 287
37. Real dünyada iqtisadiyyat 295
38. Bankirlər çılğınlaşır 303
39. Səmadakı divlər 313
40. Niyə iqtisadçı olaq 321

BİRİNCİ FƏSİL



Soyuq Başlar və İsti Ürəklər

Əslində, bu kitabı əlinizdə tutmağınız sizə xüsusi bir mövqe qazandırır. Əvvəla, sizin (və ya sizə bu kitabı verənin) indi oxuduğunuz kitabı almağa pulunuz var. Əgər kasıb bir ölkədə doğulmuş olsaydınız, aileniz, yəqin ki, günə bir neçə dollara çətinliklə dolanardı. Qazancınızın çoxu ərzağa gedərdi və kitab almağa pulunuz qalmazdı. Hətta əgər kitabı əldə etmiş olsaydınız belə, böyük ehtimalla o sizə lazım olmayacaqdı, çünki siz onu oxuya bilməyəcəkdiniz. Qərbi Afrikanın kasıb bir ölkəsi olan Burkina Fasoda oğlanların yarısından azı, qızların isə yalnız üçdə biri kitabı üzündən oxuya bilir. Burada yaşayan 12 yaşlı bir qız uşağı cəbr və ya xarici dilləri öyrənmək əvəzinə, gününü daxmalarına vedrələrdə su daşımaqla keçirmək məcburiyyətindədir. Siz özünüzü və ailənizi çox da varlı hesab etməyə bilərsiniz, amma bəzi insanlara

görə kitaba pul xərcləmək və onu oxuya bilmək aya səyahət etmək kimi bir şeydir.

Belə hədsiz fərqlə maraqlananlar və bəlkə də, bu fərqə görə əsəbləri tarıma çəkilən insanlar, adətən, iqtisadiyyata üz tuturlar. İqtisadiyyat cəmiyyətlərin öz resurslarından – çörək və ayaqqabı kimi faydalı məhsulların emalı üçün tələb edilən torpaq, kömür, insanlar və maşınlar – necə istifadə etdikləri barədə elmdir. İqtisadiyyat Burkina Fasodakı insanların tənbəl olduqları (bəziləri elə tənbəldir) üçün kasıb olduqlarını deməyin niyə olduqca yanlış olduğunu göstərir. Niyə İngiltərədə uşaqların təhsil alması üçün binalara, kitablara, müəllimlərə ehtiyac var, amma Burkina Fasoda yoxdur? Bu, inanılmaz dərəcədə çətin bir sualdır və heç kim bu sualın məğzinə varmayıb. İqtisadiyyat buna cəhd edir.

Bu da sizə iqtisadiyyat qarşısında ovsunlanmağınız və bəlkə də, bu mövzuda öz fikirlərinizi ortaya qoymağınız üçün güclü bir səbəb. İqtisadiyyat bir ölüm-qalım məsələsidir. Bu gün zəngin bir ölkədə doğulan körpənin beş yaşına çatmadan ölmək ehtimalı çox azdır. Körpə uşağın ölümü nadir hallarda rast gəlinən dəhşətli bir hadisədir. Dünyanın ən kasıb ölkələrində isə, qida və dərman çatışmazlığı səbəbindən uşaqların 10 faizindən çoxu heç beş yaşına qədər yaşaya bilmirlər. Bu ölkələrdəki yeniyetmələr sağ qaldıqları üçün özlərini şanslı saya bilərlər.

"İqtisadiyyat" sözü bir az darıxdırıcı səslənə və gözlərinizin qarşısına hansısa cansıxıcı statistik rəqəmlər gələ bilər. Amma iqtisadiyyat, həqiqətən də, insanların sağ qalmaları, sağlam və savadlı olmalarının, tam və xoşbəxt yaşamaq üçün lazım olan şeylərin əldə olunması və bəzilərinin onları niyə əldə edə bilməməsi barədə mənbədir. Əgər biz əsas iqtisadi məsələləri həll edə bilsək, bəlkə də, hər kəsin daha yaxşı həyat sürməsinə köməklik edə bilərik.

Hazırkı iqtisadçıların resurslar, yəni məktəb tikmək üçün kərpiclər, xəstəlikləri müalicə etmək üçün dərmanlar və insanların

istədikləri kitablar barədə xüsusi bir düşüncə tərzləri var. Onlar bu resursların "nadir" olduqlarını deyirlər. 1930-cu illərdə britaniyalı iqtisadçı Laynel Robbins iqtisadiyyatı nadirlik haqda elm kimi xarakterizə etmişdi. Almaz və ağ tovuzquşu kimi nadir şeylər az tapılandır, amma iqtisadçılara görə, qələmlər və kitablar da az tapılandır. Hərçənd onları evdə və ya yaxınlıqdakı mağazada asanlıqla tapa bilərsiniz. Bu adamlar aztapılan deyəndə həmin predmetlərin bəlli sayda olduqlarını nəzərdə tuturlar və insanların istəkləri potensial olaraq limitsizdir. Bizdən asılı olsaydı, sonsuza qədər yeni qələm və kitablar alardıq, amma istədiklərimizin hamısına sahib ola bilmərik, çünki hər şeyin bir dəyəri var. Bu o deməkdir ki, biz seçim etməliyik.

Gəlin dəyər barədə bir az düşünək. Dəyər, nə qədər vacib olsa da, sadəcə, funt və dollar deyil. Gələn il hansı fənni oxumaq istədiyini seçən bir tələbəni gözlərinizin önünə gətirin. Seçimlər tarix və coğrafiyadır, lakin hər ikisi deyil. Tələbə tarixi seçir. Bu seçimin dəyəri nədir? Bu sizin qurban verdiklərinizdir: səhralar, buzlaqlar və paytaxt şəhərlər barədə öyrənmək fürsətidir. Bəs yaxşı, yeni bir xəstəxananın dəyəri nədir? Siz bura istifadə olunan kərpicin və poladın qiymətini əlavə edə bilərsiniz. Amma əgər qurban barədə düşünəsi olsaq, o zaman üstünlüyü xəstəxanaya yox, inşa edə biləcəyimiz dəmiryol stansiyasına verməliyik. İqtisadçılar buna "fürsət xərcləri" deyirlər və bunu müşahidə etmək asandır. Nadirlik və fürsət xərcləri əsas iqtisadi prinsipi göstərir: xəstəxanalarla dəmiryol stansiyaları, alış-veriş mərkəzləri ilə futbol meydançaları arasında seçim etmək imkanı var.

Deməli, iqtisadiyyat ehtiyaclarımızı qarşılamaq üçün məhdud resurslardan necə istifadə etdiyimizlə maraqlanır. Amma bundan daha da artığını edir. İnsanların üzləşdikləri bu seçimlər necə dəyişir? Kasıb cəmiyyətlərdə yaşayanlar daha sərt seçimlərlə üzlə-

şirlər: uşaqlara yemək almaq, ya da xəstə bir nənəyə antibiotik almaq. Amerika və İsveç kimi zəngin ölkələrdə bu cür seçimlərə nadir hallarda rast gəlinir. Orada insanlar yeni bir qol saatı və ya ən son aypəd (iPad) modeli arasında seçim edə bilərlər. Zəngin ölkələr ciddi iqtisadi problemlərlə də – bəzən şirkətlər müflisləşir, işçilər işlərini itirir və uşaqlarına paltar almaq üçün əlləşib-vuruşurlar – qarşılaşırlar, amma bu problemlər, bir qayda olaraq, ölüm-qalım məsələsinə çevrilmir. O zaman iqtisadiyyatın əsas mövzusu cəmiyyətlərdə qıtlığın yaratdığı aşırı təsirləri necə həll etmək və onların bəzilərinin dərhal və ləngimədən aradan qaldırılmasını təmin etməkdir. Tutarlı bir cavab tapmaq üçün göstəriləcək cəhd fürsət xərcləri üçün göstərilən ustalıqdan daha artığını tələb edir. Yeni bir xəstəxanamı, yoxsa futbol meydançasımı inşa etməliyik, aypədmi, yoxsa qol saatımı almalıyıq kimi qərarların verilməsində bacarıqlı olmaq lazımdır. Cavabınız hər cür iqtisadi nəzəriyyələrə və fərqli iqtisadiyyatların real olaraq necə işləməsinə əsaslanan dərin biliyə söykənməlidir. Tarixdə iz qoymuş iqtisadçı alimləri bu kitabda bir araya gətirmək yaxşı bir başlanğıc nöqtəsidir; onların fikirləri iqtisadçıların səylərinin necə heyranedici şəkildə müxtəlif olduğunu bizə göstərəcək.

Aydındır ki, iqtisadçılar "iqtisadiyyatı" araşdırırlar. İqtisadiyyat resursların istifadə edildiyi, yeni şeylərin hazırlandığı və kimin nə qazanacağına qərar verildiyi yerdir. Məsələn, istehsalçı parça satın alır və qısaqol köynək istehsal etmək üçün işçi götürür. İstehlakçılar – siz və mən – mağazalara gedirik və əgər cibimizdə pulumuz varsa, qısaqol köynək kimi məhsullar ala bilirik (biz onları "istehlak" edirik). Biz həm də "xidmətlər" istehlak edirik. Doğrudur, onlar, məsələn, saç kəsimi kimi, fiziki şey deyil. İstehlakçıların əksəriyyəti də işçilərdir, çünki onlar işləyərək pul qazanırlar. Firmalar, işçilər və istehlakçılar iqtisadiyyatın əsas elementləridirlər. Ancaq banklar və fond birjaları da – buna "maliyyə